Racasekar KS

#Ərini *kitab kimi* oxu

İngiliscədən tərcümə:
Çimnaz Adıgözəl

qanun nəşriyyatı

Rajasekar KS

# How to Read Your Husband

## *Like a Book*

“Ərini kitab kimi oxu” kitabı ailə münasibətlərindən yumorla bəhs edən, gündəlik həyatdakı “kişi məntiqi”ni oxuculara bədii və eyni zamanda, səmimi dillə təqdim edən əsərdir. Müəllif ər-arvad münasibətlərinə tez-tez rast gələnən situasiyaları – alış-verişdən uşaqların dərslərinə, qayınana münasibətlərindən ev işlərinə qədər – zarafatla, bəzən isə şirin istehza ilə təsvir edir.

Kitabın əsas məqsədi qadınlara “ərləri anlamaq” üçün bələdçilik etməkdir. Burada kişilərin susqunluqları, laqeyd görünən davranışları, qısqanclıqları və “tək iş görmə” bacarıqları, əslində, sadə psixoloji ehtiyaclar kimi izah edilir. Müəllif göstərir ki, kişilərin davranışlarının çoxu laqeydlikdən deyil, fərqli düşünmə tərzindən qaynaqlanır. Kitab ər-arvad arasındakı gündəlik kiçik mübahisələri, inciklikləri böyük faciəyə çevirmədən, təbəssüm və anlayışla yoluna qoymağı öyrədir.

*Bu kitab həyatda hər gün qarşılarına çıxan çətinliklərə baxmayaraq, bir-birini sevən, dəstəkləyən, qayğısına qalan və bir-birinin yanında olan və fərqliliklərini birlikdə bayram edən bütün xoşbəxt cütlüklərə həsr olunur.*

# Təşəkkürlər

Valideynlərim KS Racu və Kantamaniyə sevgilərinə və qayğılarına görə minnətdaram.

Fikirlərimi həyata keçirən rəssamım B.Sentilə təşəkkür edirəm.

Kollecdə ingilis ədəbiyyatı üzrə professorum və tanınmış yazıçı dok. P.Racaya məni kitab yazmağa həvəsləndirdiyi üçün minnətdaram.

Kitabıma inanıb dərc edən naşirimə təşəkkür edirəm.

Xüsusilə həyat yoldaşım Kalpanaya sonsuz sevgi və dəstəyinə görə, eləcə də həmişə gülərüz qızlarım Kritika və Snehaya sevgiləri üçün minnətdaram.

## MÜƏLLİFİN QEYDİ

Mənim artıq iyirmi beş illik xoşbəxt ailə həyatım var. Həqiqətən, inanıram ki, ər-arvad münasibəti çox gözəl bir bağdır və hər kəsə bu nemətdən arzulayıram. Kişinin düşüncə tərzi qadının daxili aləmindən tamamilə fərqlənir. Məhz bu fərq cütlüyün münasibətinə həyəcan, maraq qatır, bəzən isə münasibətləri çətinləşdirir.

Mənim kitabım evli qadınların ərlərinin necə düşündüyünü və necə reaksiya verdiyini anlamağı üçün bələdçidir. Ümid edirəm ki, bu kitab sizə münasibətinizə başqa gözlə baxmağı öyrədər və həyat yoldaşınızla münasibətlərinizi yaxşılaşdırmağa kömək edər.

Bu kitabı oxumağa vaxt ayırdığınız və zəhmət çəkdiyiniz üçün minnətdaram. Bütün işlərinizdə sizə xoşbəxtlik arzulayıram.

Əgər kitabım sizdə hər hansı təəssürat yaradıbsa, xahiş edirəm, mənə positivemantra@gmail.com ünvanına yazın.

## Evli kişilərin beynindəki iki qutu

Kişiləri anlamaq asandır, hə, əgər artıq 10 ildir evlisinizsə. Bu illər ərzində isə niyə ad gününü unutduğunu, niyə nəm dəsmalları yatağın üstünə atdığını, təzə saç düzümünü niyə görmədiyini, onunla danışanda niyə televizora baxdığını.... və sair və ilaxırı fikirləşməkdən saçın ağaracaq.

Əslində, onlar çox düşünmürlər. Beyinlərində sadəcə iki qutu var: "İndi görəcəyim işlər" və "Bu qutunu açma" qutusu.

Birinci qutuya onların hal-hazırkı məşğuliyyətləri, məsələn, maşın sürmək, işdə kiməsə zəng vurmaq, paltaryuyanı doldurmaq və ya qonşuya tamaşa etmək ilə əlaqədar fikirlər daxildir.

İkinci qutu isə tamamilə istirahət üçündür: həftəsonu dincəlmək, videooyun oynamaq və ya televiziyadakı gecə şousunu izləmək, köhnə dostlarla görüşmək, gizli xəyallar və fantaziyalar üçün!

"Ərini kitab kimi oxu" kitabında mən kişilərin müxtəlif şəraitlərdə necə düşündüyünü və necə davrandığını izah etməyə çalışmışam. Məqsədim yeni ailə qurmuş qadınlara öz "kişilərini" anlamağa kömək etmək və aralarındakı münasibəti gücləndirməkdir. Əminəm ki, oxuduqca "ahaa, deməli, məsələ bu imiş" dediyiniz məqamlar da olacaq.

Beyninizdəki bütün fikirlərinizi faş etdiyim üçün bütün evli kişilərdən üzr istəyirəm. Axı kimsə həqiqəti deməli idi!

Ərlər elə zənn edirlər ki,
“iş” yalnız həftə içi ofisdə gördüyü
işlərdir və Tanrı həftəsonlarını
onların dincəlməyi və
istirahət etməsi üçün yaradıb.